

**Başlığa çıxardığımız bu sərlövhə II Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının açılışı zamanı baş nazirin müavini Elçin Əfəndiyevin kitabın əhəmiyyəti barədə səsləndirdiyi fikirlərdən götürülmüşdür.**

# Mənəvi qida

**Xalq yazıçısı çox haqlı olaraq kitabı bəşəriyyətin ən böyük kəşfi adlandırmışdır. Natiq vurğulamışdır ki, kitabsız heç bir inkişaf və mədəniyyətdən danışmaq mümkün deyil.**

Məhz ona görə də həyatımızın bütün sahələri öz tərəqqisi üçün ilk növbədə insan ağlının və əməyinin ən dəyərli məhsuluna - kitaba minnətdar olmalıdır.

Bu yerdə məşhur rus yazıçısı A.Gertsenin müdrik kəlamlarını xatırlamamaq olmur: *"Kitab bir nəslin digər nəslə mənəvi vəsiyyəti, ölməkdə olan qocanın yaşamağa başlayan cavana vəsiyyətidir, istirahətə gedən keşikçinin onun yerinə keçən keçikçiyə təhvil verdiyi əmanətdir. Bəşəriyyətin bütün həyatı tədricən kitabda məskən salmışdır: nəsillər, adamlar, dövlətlər gəlib getmiş, kitab isə qalmışdır…"*

V.Q.Belinski bu fikirləri sanki davam etdirirmiş kimi yazırdı: *"Kitab zəmanəmizin həyatıdır. Ona hamının ehtiyacı vardır: qocaların da, gənclərin də, iş adamlarının da, işi olmayanların da və habelə uşaqların da…"*

M.Qorki etiraf edirdi ki, kitablar olmasaydı səfalət və alçaqlıq içində qərq olardı. Ə.Cami nəsihət edirdi ki:

*Ağıllı adamlar, yaxşı adamlar!*
*Bilik kitabdadır, axtarsan əgər,*
*Kitabı sevənlər tənhalıq bilməz,*
*Elmə arxalanan "sınar, əyilməz".*
*Kitab işıq saçar bir günəş kimi,*
*Kitabdır arifin könül həmdəmi.*

Məhz bu amillərə görədir ki, Azərbaycanda kitaba münasibət tarixən çox yaxşı olmuş, ona müqəddəs məfhum kimi dərin hörmət göstərilmişdir.



Kitabın həyatımızda oynadığı önəmli rol nəzərə alınaraq yeni ədəbiyyatların nəşri və təbliğinə son illərdə qayğı daha da artırılmışdır.

Yuxarıda bəhs etdiyimiz II Beynəlxalq Kitab Sərgi-Yarmarkasının təşkili bu baxımdan xüsusi maraq doğurur. Müstəqilliyimizin bərpasının iyirminci ildönümünə həsr edilən bu möhtəşəm tədbir ölkəmizdə kitab sənətinin inkişafına, Azərbaycan kitabının beynəlxalq aləmdə tanıdılmasına, respublikada nəşriyyat və poliqrafiya sahəsinin yüksəldilməsinə göstərilən diqqətin təzahürü kimi xarici qonaqların nəzərindən yayınmaması bizim üçün xüsusilə əlamətdar oldu.



Tədbirdən əvvəl sərgi-yarmarkanın iştirakçıları Fəxri Xiyabana gedərək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etdilər, məzarı önünə gül dəstələri qoydular.

Sərgi-yarmarkanı giriş sözü ilə açan mədəniyyət və turizm naziri Əbülfəs Qarayev tədbir iştirakçılarına ötən illər ərzində nəşriyyat işinin sürətli inkişaf prosesinə başlanması, müasir tələblərə cavab verən nəşr layihələrinin gerçəkləşdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verdi.

Bildirdi ki, Azərbaycan kitabları 2004-cü ildən başlayaraq hər il Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən MDB ölkələrinin Beynəlxalq Kitab Sənəti Müsabiqəsində ardıcıl olaraq iştirak etmiş və hər dəfə də müxtəlif nominasiyalar üzrə 1-ci, 2-ci və 3-cü dərəcəli mükafatlardan birinə və yaxud bir neçəsinə layiq görülmüş, 2010-cu ildə isə bir kitabımız müsabiqənin Qran-Pri mükafatını qazanmışdır.

2006-cı ildən isə Azərbaycan kitabı İsgəndəriyyə (Misir), Frankfurt (Almaniya), Varşava (Polşa), Pekin (Çin), İstanbul (Türkiyə), Əbu-Dabi (BƏƏ), Saloniki (Yunanıstan), Moskva (Rusiya), Minsk (Belarus), London (Böyük Britaniya), Tehran (İran) və Paris (Fransa) şəhərlərində keçirilən beynəlxalq kitab sərgi-yarmarkalarında uğurla nümayiş etdirilmiş, sərgilərimiz ziyarətçilərin böyük marağına səbəb olmuşdur. Ümumiyyətlə, son beş ildə Azərbaycan kitabı 20 beynəlxalq sərgidə təmsil olunmuşdur.

Azərbaycanda beynəlxalq kitab sərgisinin təşkili sahəsində ilk addım 2006-cı ildə atılmışdır. O dövrdə respublikamızda qeyd edilən "Rusiya ili" çərçivəsində Bakıda I Beynəlxalq Rus Kitabı Festivalı keçirilmişdir. Festivala dünyanın bir çox ölkələrindən rus dilində yazıb-yaradan 150-yə yaxın tanınmış yazıçı, şair və naşir, 40-dan artıq mötəbər qonaq və Azərbaycanın yaradıcı ziyalıları qatılmışdılar.





Bu sahədə ən uğurlu nəticəmizə gəlincə qeyd etməliyik ki, 10-12 senytabr 2009-cu il tarixində Muzey Mərkəzində Azərbaycanda ilk dəfə olaraq I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının təşkili gerçəkləşdirilmişdir. İstər mətbuatda, istərsə də kitabsevərlər arsında böyük marağa səbəb olan bu sərgi-yarmarkada 20 xarici ölkədən təxminən 35-ə yaxın, Azərbaycandan isə 60-dan artıq nəşriyyat və poliqrafiya müəssisəsi iştirak etmişdir.

Bütövlükdə 90-dan artıq qurumun təmsil olunduğu bu tədbir çərçivəsində keçirilən təqdimat mərasimləri və görüşlər də iştirakçıların diqqətini çəkmiş, mətbuatda geniş işıqlandırılmışdır.

Təbii ki, II Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası istər tədbirə qatılan ölkələrin coğrafiyasına, onların təmsil etdikləri müəssisələrin sayına, istərsə də ölkəmizin öz çap məhsullarını sərgiləyən nəşriyyatların çoxluğuna görə daha yadda qalan olmuşdur.

Belə ki, yarmarkada ölkəmizin 100-dən artıq nəşriyyat və poliqrafiya müəssisəsi ilə yanaşı ABŞ, Rusiya, İran, Türkiyə, Macarıstan, Makedoniya, Slovakiya, Belarus, Latviya, Moldova, Türkmənistan, Özbəkistan və Qırğızıstan nəşriyyatlarının son üç ildə işıq üzü görən nəşrləri nümayiş etdirilmişdir.

Əl Oyunları İdman Sarayında 1200 kvadratmetr sahədə stendlərin qurulması da sonda sərginin gedişində bütün zəruri xidmətlərin göstərilməsinə əlverişli şərait yaratmışdır.

Sərgi həmçinin özündə rəngarəng tədbirləri ehtiva edən dolğun proqramı ilə fərqlənmişdir. Sentyabrın 28-dən 30-dək burada kitab təqdimatları, tanınmış yazıçılarla görüşlər, ədəbi-bədii gecələr, simpoziumlar və s. təşkil edilmişdir.

İlham Rəhimlinin "Heydər Əliyev Sarayı", "Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı", "Azərbaycan Dövlət Kukla Teatrı", "Azərbaycan Dövlət Film Fondu", "Azərbaycan Dövlət Rus Dram Teatrı", Timuçin Əfəndiyevin "Mədəniyyətdə tarixilik və müasirlik", Çingiz Əlioğlunun "Çərçivə", 150 cildlik "Dünya ədəbiyyatı" seriyasından nəşri başa çatmış kitabların təqdimatı, "Azərbaycanın dövlət müstəqilliyi və kitab sənətinin inkişafı" mövzusunda konfrans, "Sənət ustadı, həqiqət carçısı Taras Şevçenko", "Türk dünyasının unudulmaz şairi Abdulla Tükay", "20 ilin ədəbi mənzərəsi" və s. başlıqlı ədəbi-bədii kompozisiya və dəyirmi masa, "Qızıl Kəlmə" Ədəbi Mükafatı laureatları ilə imza mərasimi, Gənc Ədiblər Məktəbi üzvləri ilə görüş və s. bu qəbildəndir.

**Beləliklə, Azərbaycan növbəti dəfə beynəlxalq əhəmiyyətli daha bir möhtəşəm tədbirə uğurlu imza atdı. Sərgi-yarmarkaya qatılanlar arasında dünyanın müxtəlif ölkələrində nəfis tərtibatda çap olunmuş kitabların sehrinə dalanlar da çox oldu, zövqlərinə uyğun ədəbiyyat əldə edənlər də...**

**Y. VƏLİYEV**